# Qarabağın yeni dövrü başlayır

***Dövlət başçımızın səfərləri, görüşləri, müsahibələri və xüsusən, xalqa müraciətləri barədə yazı hazırlayanda mütləq hansısa tarixi bir fakt və ya əlamətdar məsələ yada düşür.***

***Dövlət başçımızın oktyabrın 9-da Xocavənddə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə səsləndirdiyi fikirləri eşidəndə tarixə "Port-Artur qəhrəmanı" kimi düşmüş görkəmli sərkərdə, general Əliağa Şıxlinskinin mətbuatdan oxuduğum bir fikrini xatırladım. "Artilleriyanın Allahı" deyibmiş ki, müharibənin hər günü ağır, əzablı və məşəqqətli olsa da, orada sevinc və iftixarla xatırlanmalı günlər də az olmur. 44 günlük müharibənin bütün detallarını xarakterizə edən Prezident isə sanki Əliağa Şıxlinskinin fikirlərini inkişaf etdirmək üçün deyir: "Hadrutun azad edilməsini tarixi hadisə kimi qiymətləndirməliyik". Məlum olduğu kimi, müharibə dövrünün bütün faktları tarixi hadisə kimi qəbul edilmir.***

***Bizim Xocavənd rayonunun, Hadrut qəsəbəsinin gələcək inkişafı ilə bağlı çox böyük planlarımız var. Biz bu gün bu planların icrasına start verdik. Bu gün xocavəndlilər öz doğma torpaqlarına gəliblər, bundan sonra gəlişlər daha da tez-tez həyata keçiriləcək.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

Kitablarda oxuyuruq ki, hərb tariximizə "Səhra artilleriyasının döyüşdə istifadəsi" əsəri və "Şıxlinski üçbucağı" kimi yeniliklərlə düşən Əliağa Şıxlinskinin uğurları uzun illər hərbi mütəxəssisləri heyrətləndirmişdir. Onun təcrübəsi Avropanın bir sıra hərbi məktəblərində topçu zabitlər üçün tədris vəsaitinə daxil edilmiş, təkcə Rusiyada deyil, Fransa, Avstriya ordularında və başqa ordularda da geniş tətbiq olunmuşdu.

İkinci Qarabağ müharibəsi haqqında olan materiallarda oxuyuruq: "Bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, uğurlarımız, qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, aparıcı ölkələr, o cümlədən, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Bu da onu göstərir ki, Azərbaycan dünyada öz sözünü deməyi bacarmışdır". Yəni, "İlham Əliyev Azərbaycanın bütün mənəvi və tarixi ənənələrini sədaqətlə davam etdirir" – deyənlər tamamilə haqlıdırlar.

Bu barədə cənab Prezidentin Xocavənddə söylədikləri isə daha aktual və nisbətən yenidir: "Hadrut əməliyyatının əhəmiyyəti ondadır ki, Ermənistan rəhbərliyi və Ermənistan ordusu gözləmirdi ki, biz Cəbrayıldan sonra Hadrut istiqamətinə gedəcəyik. Onlar hesab edirdilər ki, biz Füzuli istiqamətinə gedəcəyik. Baxmayaraq ki, Hadrutda onların çox böyük canlı qüvvəsi var idi, bizi gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək, doğrudan da, çox böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik. Göstərdik ki, heç kim və heç nə bizim qabağımızda dura bilməz, nəyin bahasına olursa-olsun, biz bütün torpaqlarımızı azad edəcəyik".

Hamının yadındadır ki, həmin günlərdə Hadrut əməliyyatı ilə bağlı Ermənistan mətbuatında yalan informasiyalar baş alıb gedirdi. Ordumuz artıq Hadrut və ətrafındakı bütün zirvələri işğalçılardan təmizləyəndən sonra Ermənistan rəhbərliyi və müdafiə nazirliyi bəyan edirdi ki, Hadrut ermənilərin əlindədir. Guya ki, onlar növbəti dəfə taktiki gediş – geriləmə ediblər və indi Hadruta qayıdıb, Azərbaycan əsgərlərini şəhərdən çıxarıblar. Bu, Azərbaycan əsgərlərinin Hadrutda üçrəngli bayrağımızı dalğalandırdıqları gün də davam edirdi.

Yeni Ermənistanın müdafiə nazirliyi də elə dövlətləri kimi başdan-ayağa yalan, uydurma, saxtakarlıq üzərində qurulmuşdur. Ermənistan təbliğatının istər işğal, istər müharibə, istərsə də postmüharibə dövründə yalan üzərində qurulduğunu daha bilməyən yoxdur. Elə erməni ictimaiyyəti də bu faktı çox yaxşı bilir. Onların Hadrutla bağlı məlum yalanını ölkə ictimaiyyəti "növbəti həyasızlıq" adlandırırdı. Əslində, həmin günlərdə ermənilərin yalan danışmaqdan başqa bir yolları da qalmamışdı. Çünki Hadrutun azad edilməsi Ermənistana çox böyük mənəvi-psixoloji sarsıntı yaşadırdı.

Əvvəla, ona görə ki, Ermənistan rəhbərliyinin fikrincə, Azərbaycan Ordusu Hadrutu heç vaxt azad edə bilməzdi. İkincisi, ona görə ki, Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun inzibati mərkəzi idi, rayon mərkəzi idi. Ermənistan rəhbərliyi və Ermənistan ictimaiyyəti gördü ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən yaşayış qəsəbələrinin işğalçılardan azad edilməsi prosesi başlanıb. Üstəlik, onlara dəfələrlə xəbərdarlıq edilmişdi ki, Ermənistan torpaqlarımızdan çıxmaq haqqında öhdəlik götürməyənə qədər biz dayanmayacağıq və dayanmadıq. Prezident xatırladır: "Ermənistan artıq kapitulyasiya aktına imza atmağa hazır olduqdan, bizə bu haqda məlumat daxil olduqdan sonra dedik ki, bəli, dayanırıq və dayandıq, qalan rayonları siyasi yollarla geri qaytardıq".

Dövlət başçımızın vurğuladığı kimi, Hadrut əməliyyatının həm strateji, həm tarixi, həm də mənəvi-psixoloji baxımdan çox böyük əhəmiyyəti var idi. Bu gün Hadrut rayonu işğalçılardan tam azad edilmişdir. Həmin faktın bizim üçün olan əhəmiyyətini və Ermənistan üçün sarsıdıcı zərbə olduğunu İrəvanda da yaxşı bilirdilər. Ona görə də müharibə başa çatandan sonra Ermənistanın Şirak vilayətindən keçmiş Hadrut rayonunun bəzi kəndlərinə xüsusi diversiya qrupu göndərilmişdi. Onlar noyabrın sonlarında Laçın dəhlizindən keçərək bu bölgələrə daxil oldular və… tərk-silah edildilər, həbs olundular. Təbii ki, bundan sonra da həmişə uğursuzluğa düçar olacaqlar.

Onların bu torpaqlarda hansısa uğur qazanması üçün heç bir perspektiv yoxdur və olmayacaq. Çünki ərazilərimizin 20 faizi onların əsarəti altında olanda bu torpaqlara ancaq xarabalıqlar, viranəliklər, qarət və talançılıqlar gətirmişlər. Üstəlik, bizim ərazilərimizdən narko-ticarət məqsədi ilə istifadə edir, beynəlxalq aləmdə terrorçu kimi tanınan təşkilatların burada təlim keçməsi üçün şərait yaradırdılar.

Prezident xatırladır: "Hadrut qəsəbəsinə baxdıqda hər kəs bir daha görür ki, ermənilər bu torpaqları özləri üçün doğma torpaq saymırdılar… Burada, demək olar ki, 30 il ərzində heç nə dəyişilməyib, hərbçilər üçün iki bina tikilmişdi, bir məktəb də təmir olunmuşdu. Qalan bütün binalar necə var idi, elə də qalıb. Yəni, kütləvi səfalət hökm sürüb, bir daş daş üstünə qoyulmayıb. Görün yollar, binalar nə gündədir?"

Bu sətirləri də elə dövlət başçımızın Xocavənddə səsləndirdiyi nikbin tonda tamamlamaq istəyirəm: "Bu gün isə artıq Hadrutun bərpası işlərinə start verildi. Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut – Cəbrayıl, Hadrut–Füzuli avtomobil yolları çəkiləcək, "Hadrut" yarımstansiyası tikiləcək, onun təməli qoyuldu və Hadrutda məscidin tikintisinə də start verildi. Məscidin də təməlini mən qoydum və hesab edirəm ki, bu da tarixi hadisədir… Biz həm tarixi ədaləti bərpa edirik, həm bizim dini-mənəvi dəyərlərimizə sədaqət göstəririk".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 13 oktyabr.- S.1.